**Naxçıvan şəhərində "Xatirə" muzeyinin və Sədərək rayon tarix-diyarşünaslıq muzeyinin yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Naxçıvan şəhərində "Xatirə" muzeyinin və Sədərək rayon tarix-diyarşünaslıq muzeyinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə razılaşdırılmış təklifi qəbul edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həmin muzeylərin ştat vahidlərini müəyyən edilmiş qaydada təsdiq etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Sədərək Rayonu İcra Hakimiyyəti ilə birlikdə yaradılan muzeylərin saxlanılması və zənginləşdirilməsi məqsədi ilə lazımi tədbirlər görsün.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. Rasİzadə**

**Bakı şəhəri, 26 iyul 2000-ci il**

**№ 129**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 3057.**